UOT 622.338

# Neftmaşınqayırma müəssisəsinin fəaliyyətində maliyyə təhlilinin rolu

**T.Ə. Tağıyeva**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

**e-mail:** turantagiyeva1225@gmail.com

**Açar sözlər:** bazar münasibətləri, maliyyə, maliyyə təhlili və menecmenti, müəssisə, neftmaşınqayırma, iqtisadiyyat.

**DOI.10.37474/0365-8554/2020-11-62-66**

**Роль финансового анализа в деятельности предприятия нефтяного машиностроения**

Т.А. Тагиева
Азербайджанский государственный университет нефти и промышленности

**Ключевые слова:** рыночные отношения, финансы, финансовый анализ и менеджмент, предприятие, нефтяное машиностроение, экономика.

В условиях рыночной экономики как основного механизма регулирования хозяйственного процесса конкуренция приобретает актуальность. В современных экономических условиях деятельность каждого хозяйственного субъекта является предметом внимания обширного круга участников рыночных отношений, заинтересованных в результате его функционирования.

Чтобы обеспечить выживаемость предприятия в современных условиях, управленческому персоналу необходимо, прежде всего, уметь реально оценивать финансовое состояние как своего предприятия, так и существующих потенциальных конкурентов.

**The role of financial analysis in activity of petroleum engineering enterprise**

T.A. Taghiyeva
Azerbaijan State University of Oil and Industry

**Keywords:** market relations, finances, financial analysis and management, enterprise, petroleum engineering, economy.

The competition becomes topical as the major regulation mechanism of industrial process within market economy. The activity of each business unit under modern market conditions is the attention focus for a wide range of participants in market relations interested in the results of its functioning.

To provide the survivability of the enterprise under modern conditions, the administrative staff foremost, should be able to really estimate financial state both its own enterprise and existing potential competitors.

Maliyyə vəziyyəti – müəssisənin iqtisadi fəaliyyətinin mühüm xarakteristikasıdır. Bu müəssisənin rəqabət qabiliyyətini, işgüzar əməkdaşlıqda potensialı müəyyən edir, maliyyə və istehsal münasibətlərində müəssisənin və onun tərəfdaşlarının iqtisadi maraqlarının nə dərəcədə təminatlı olduğunu qiymətləndirir. Lakin müəssisənin müvəffəqiyyətli fəaliyyəti üçün və onların qoyduqları məqsədə çatmalarında sadəcə maliyyə vəziyyətinin real qiymətləndirilməsi kifayət etmir [1–5].

Müəssisənin, o cümlədən neftmaşınqayırma müəssisəsinin rəqabət qabiliyyətini yalnız onun sərəncamında olan kapital və maliyyə resurslarının hərəkətinin düzgün idarə edilməsi təmin edə bilər.

Qeyd edək ki, Azərbaycan bazar iqtisadi münasibətləri şəraitində iqtisadiyyatını quraraq, dünya iqtisadiyyatına inteqrasiya edir. Ölkə iqtisadiyyatının dayanıqlı və davamlı inkişafı, büdcənin mədaxil hissəsinin formalaşması neft sənayesinin fəaliyyətindən asılıdır. Azərbaycan keçmiş ittifaqın tərkibində olarkən onun iqtisadiyyatında həmçinin neftmaşınqayırma sənayesinin də böyük rolu olmuşdur. Neft sənayesinə aid bir sıra avadanlıqlar məhz respublikamızda istehsal olunur və böyük əksəriyyəti dünya ölkələrinə ixrac edilirdi. Sosialist düşərgəsinin çökməsi başqa sahələr kimi, bu sənaye sahəsinin fəaliyyətində də öz mənfi "izlərini" qoymuşdur. Sənayedə məhsul istehsalı azalmış, zavodların fəaliyyətində bir durğunluq yaranmışdır. Lakin son illər ölkədə aparılan iqtisadi islahatlar neftmaşınqayırma sənayesində də yeni inkişaf stimulları yaratmışdır. İstənilən müəssisənin iqtisadi fəaliyyəti, onun maliyyə göstəricilərində öz əksini tapır. Bu məqalədə nəzəri olaraq neftmaşınqayırma sənayesi müəssisələrində iqtisadi dayanıqlığın təmin olunması üçün maliyyə təhlilinin rolu tədqiq olunacaqdır.

**Maliyyə informasiyası və idarəetmə**

Bazar münasibətləri şəraitində maliyyə məsələlərinin qoyulması və həlli üçün "Maliyyənin idarə edilməsi" və ya "Maliyyə menecmenti" kimi istiqamətlər yaranmışdır.

Maliyyə menecmenti bir elm sahəsi kimi mürəkkəb quruluşa malikdir. Bunun əsas tərkib hissələrindən biri maliyyə təhlilidir ki, bu da mühasibat uçotuna və təsərrüfat həyatının gələcək amillərinin ehtimal qiymətləndirilməsinə əsaslanır. Mühasibat uçotu və idarəetmə arasındakı əlaqə aydındır, çünki maliyyə göstəricilərinin təhlilini aparmadan idarəetmə qərarları qəbul etmək çox çətindir. Belə ki, idarəetmə dedikdə qərar qəbul etmə başa düşülür. İdarəetmə – bu uzaqgörənlikdir, bunun üçün isə vacib informasiyaya malik olmaq lazımdır. Bununla əlaqədar olaraq neftmaşınqayırma müəssisələrində mühasibat hesabatları, sonrakı analitik hesabatlar, yəni qərar qəbul etmək üçün vacib olan informasiyalar mühüm rol oynayır. Maliyyə xarakterli məsələnin həlli, informasiya bazasının dolğunluğu və obyektivliyindən çox asılıdır.

Maliyyə menecmenti bir sıra əsas konsepsiyaya söykənir: pul resurslarının müvəqqəti dəyərə malik olması, pul axınları, maliyyə riski, kapitalın qiyməti, səmərəli bazar. Maliyyə menecmenti üçün pul resurslarının müvəqqəti dəyərə malik olması xüsusi əhəmiyyət kəsb edir, belə ki, analitik hesabatlarda müxtəlif dövrlərdə toplanmış pul axınlarının müqayisə edilməsi məsələsi qarşıya çıxır.

Müasir dövrdə maliyyə meneceri müəssisənin əsas qərar qəbul edənlərindən birinə çevrilir. O, maliyyə xarakterli problemin qoyuluşu, müəssisənin rəhbəri tərəfindən qərarların qəbulunda bu və ya digər üsulun istifadəsinin məqsədəuyğunluğunun təhlili və ən düzgün fəaliyyət variantının təklifinə görə məsuliyyət daşıyır. Ümumilikdə, neftmaşınqayırma müəssisəsinin maliyyə menecerinin fəaliyyətini aşağıdakı istiqamətlərdə təsvir etmək olar: ümumi maliyyə təhlili və planlaşdırma; müəssisəni maliyyə resursları ilə (vəsaitlərin mənbələrinin idarə edilməsi) təmin etmək; maliyyə resurslarını bölüşdürmək (investisiya siyasəti).

Fikrimizcə, maliyyənin uğurlu idarə edilməsi aşağıdakı istiqamətlərə yönəlmişdir:

– rəqabət mübarizəsi şəraitində müəssisənin yaşaya bilməsi;

– müflisləşmə və böyük maliyyə uğursuzluqlarından qaçmaq;

– rəqiblərlə mübarizədə liderlik;

– müəssisənin iqtisadi potensialının qəbul olunan tempdə artımı;

– istehsal və reallaşdırma həcminin artımı;

– mənfəətin maksimallaşdırılması;

– xərclərin minimallaşdırılması;

– müəssisənin rentabelli işinin təmin edilməsi.

Bütün sadalananlar maliyyə menecmentinin məqsədlərinə və iş prinsipinə aiddir.

**Maliyyə təhlili və müəssisənin dayanıqlı inkişafı**

Müasir iqtisadi şəraitdə hər bir təsərrüfat subyektinin fəaliyyəti bazar münasibətləri iştirakçılarının (təşkilat və şəxslər) geniş dairəsinin tədqiqat predmetidir, bu iştirakçılar isə müəssisənin fəaliyyət nəticələri üçün maraqlıdırlar. Onlara əlçatan olan hesabat – uçot informasiyası əsasında, həmin şəxslər (təşkilatlar) müəssisənin maliyyə vəziyyətini qiymətləndirməyə cəhd edirlər. Bunun üçün əsas alət isə maliyyə təhlilidir. Maliyyə təhlili vasitəsilə təhlil olunan obyektin xarici və daxili münasibətlərini obyektiv qiymətləndirmək, sonra isə onun nəticəsinə görə əsaslandırılmış qərar qəbul etmək olar.

Maliyyə təhlili keçmişdə müəssisənin maliyyə vəziyyəti və fəaliyyət nəticələri haqqında məlumatların öyrənilməsinə əsaslanaraq, perspektivdə onların inkişafının qiymətləndirilməsi məqsədini daşıyır. Beləliklə, maliyyə təhlilinin əsas vəzifəsi, gələcəyə istiqamətlənmiş iqtisadi qərarların qəbulu ilə əlaqədar qaçılmaz qeyri-müəyyənliklərin azaldılmasından ibarətdir.

Maliyyə təhlili aşağıdakıları qiymətləndirməyə imkan verir:

– müəssisənin əmlak vəziyyəti;

– sahibkarlıq riskinin dərəcəsi, xüsusi halda üçüncü şəxslər qarşısında öhdəliklərin silinməsi mümkünlüyü;

– cari fəaliyyət və uzunmüddətli investisiya üçün kapitalın kafiliyi;

– əlavə maliyyələşdirmə mənbəyinə tələbat;

– kapitalın genişləndirilməsi qabiliyyəti;

– borc vəsaitlərinin cəlb edilməsinin rasionallığı;

– mənfəətin bölüşdürülməsi və istifadəsi siyasətinin əsaslandırılması;

– investisiyanın seçilməsi məqsədəuyğunluğu.

Sözün geniş mənasında maliyyə təhlilini belə istifadə etmək olar: investisiyanın məqsədəuyğunluğu, qısamüddətli və uzunmüddətli iqtisadi qərarların əsaslandırılması aləti kimi; idarə etmək ustalığı və keyfiyyət vasitəsi kimi; gələcək nəticələrin proqnozlaşdırılması üsulu kimi. Müasir maliyyə

təhlili müəssisənin fəaliyyət şəraitinə mühitin artan təsiri altında daim dəyişir. Xüsusi halda, onun məqsədli istiqaməti dəyişir: nəzarət funksiyası ikinci plana keçir və əsas istinad idarəetmə və investisiya həllinin, kapital qoyuluşunun və onların məqsədəuyğunluğunun qiymətləndirilməsi istiqamətlərinin əsaslandırılmasına edilir [4].

Maliyyə təhlili maliyyə menecmenti və auditin mühüm elementidir. Təcrübi olaraq müəssisənin maliyyə hesabatlarının bütün istifadəçiləri qərarların qəbulu üçün maliyyə təhlili metodlarından istifadə edir. Bu, müəssisənin fəaliyyətinin və maliyyə vəziyyətinin müxtəlif aspektlərini xarakterizə edən mütləq və nisbi göstəricilərinin hesablanmasına əsaslanmışdır.

Mülkiyyət sahibləri maliyyə hesabatlarını təhlil edir, müqayisəli təhlil aparır və uyğun nəticə çıxarır, bunların əsasında isə onlar kapitalın gəlirliyinin yüksəldilməsi, müəssisənin vəziyyətinin sabitləşdirilməsini təmin etməyə yönəlmiş maliyyə siyasəti yerinə yetirirlər. Kreditor və investorlar borc və əmanətləri üzrə öz risklərini minimallaşdırmaq üçün maliyyə hesabatlarını təhlil edirlər. Qəbul edilən qərarın keyfiyyəti onların analitik əsaslandırmalarının keyfiyyətindən çox asılıdır [5].

Beləliklə, maliyyə təhlilinin əsas məqsədi müəssisənin maliyyə vəziyyəti, onun mənfəət və gəlirləri, aktiv və passivlərinin strukturundakı dəyişikliklər, debitor və kreditorlarla hesabat haqqındakı əsas (daha çox informativ) kiçik sayını müəyyən etməkdən ibarətdir. Bu zaman analitik və rəhbər (meneceri) müəssisənin həm cari maliyyə vəziyyəti, həm də yaxın və ya uzaq perspektivə olan vəziyyəti, daha doğrusu gözlənilən maliyyə vəziyyətinin parametrləri maraqlandıra bilər.

Fikrimizcə, təhlilin məqsədinə analitik məsələ müəyyən qarşılıqlı əlaqəli həll nəticəsində çatmaq mümkündür. Analitik məsələ dedikdə, təhlilin yerinə yetirilməsinin təşkilati, informasiya, texniki və metodiki imkanlarını nəzərə almaqla təhlilin məqsədinin konkretləşməsi başa düşülür. Əsas amillərə ilkin informasiyanın həcmi və keyfiyyəti daxildir. Bu zaman nəzərə almaq lazımdır ki, müəssisənin maliyyə hesabatının dövrülüyü – bu, ancaq "bişməmiş" informasiyasıdır və müəssisənin uçot prosedurunun hazırlanması gedişində hazırlanmışdır. İstehsal, satış, maliyyə, investisiya və yenilikçilik sahələrində idarəetmə qərarları qəbul etməkdən ötrü, uyğun məsələlər üzrə rəhbərliyi məlumatlandırmaq lazımdır. Bu isə ilkin "bişməmiş" informasiyanın seçilməsi, təhlili, qiymətləndirilməsi və təmərküzləşməsi nəticəsində mümkün ola bilər.

Maliyyə təhlili müəssisənin idarəetmə strukturunun yuxarı eşelonunun preroqatividir ki, bu da maliyyə resursları və pul vəsaitləri axınının formalaşmasına təsir etmək imkanına malikdir. Neftmaşınqayırmada xüsusi idarəetmə qərarlarının səmərəliyi və ya qeyri-səmərəliyi, məhsula qiymətin təyin edilməsi, xammalın partiyalarla alınma ölçüsü və ya məhsulun göndərilməsi, avadanlığın və ya texnologiyanın dəyişdirilməsi və s. ilə əlaqədar müəssisənin ümumi uğuru, onun iqtisadi artımının xarakteri və ümumi maliyyə səmərəliyinin artımı nöqteyi – nəzərdən qiymətləndirilməlidir [5].

Fikrimizcə, bu məsələlərin həlli bir neçə şərti ödəməlidir.

– İqtisadi qərarların qəbulu məqsədi üçün maliyyə əmsallarından istifadənin uğursuzluğu, ilk növbədə onunla izah olunur ki, gənc analitikləri mühasibat uçotu metodologiyası nöqteyi – nəzərindən müqayisə edilə bilməyən məlumatların təhlili üçün cəlb edilir və onların əsasında adekvat olmayan nəticələr çıxarılır.

– Maliyyə təhlili metodlarını mənimsəmək. Bu zaman maliyyə məsələlərinin həlli vaxtı keyfiyyət mülahizəsi keyfiyyət nəticəsindən vacib deyildir. Belə keyfiyyət mülahizəsinə ilk növbədə vəziyyətin ümumi qiymətləndirilməsi və qarşıda duran problemi aid etmək lazımdır. Bu zaman həm maliyyə təhlilinin bu və ya digər konkret metodundan istifadəni, həm də onun nəticələrinin interpretasiyası, həmçinin konkret vəziyyət və təhlilin məqsədindən asılı olan vacib dəqiqlik dərəcəsi təyin olunacaqdır. Keyfiyyət mülahizələrinin təmin edilməsi üçün əldə olunan informasiyanın etibarlığı, həmçinin qeyri-müəyyənlik və risk dərəcəsinin qiymətləndirilməsi vacibdir.

– Analitik işin yerinə yetirilməsinin konkret məqsədinin müəyyən edilməsi ilə əlaqədar fəaliyyət proqramının mövcudluğudur. Məsələn, neftmaşınqayırmada hesabat verilənləri üzrə likvidlik əmsalının yekun təhlili (izahlı məlumatın müqayisə edilməsi məqsədilə yerinə yetirilən), gələcək pul axınlarının proqnozlaşdırılması məqsədini güdən, dərin ödəmə qabiliyyəti təhlilindən fərqlənəcəkdir.

– Maliyyə təhlilinin nəticələrinin dəqiqliyinə təsir edən, tətbiq edilən analitik alətlərə məxsus olan, məhdudiyyətin başa düşülməsi ilə təyin edilir. Belə ki, yeni investisiyanın məqsədəuyğunluğu haqqında qərarın qəbul edilməsi prosesi üçün mühüm moment, kapitalın dəyərinin təyin edilməsidir. Maliyyə təhlilinin nəzəriyyə və təcrübəsi, investisiyanın qiymətləndirilməsinin baxılan metodlarının müxtəlif hesabat üsulları dəstinə malikdir ki, bunlar da kapitalın ayrıca təşkiledicisinin dəyərinin təyin edilməsində həm metodiki yanaşma, həm də informasiya bazası ilə fərqlənir.

– Analitikin professionallığı, kapitalın dəyərinin təyin edilməsinin müxtəlif metodlarına sahib olmaqla, bu və ya digər metodoloji yanaşmadan istifadə problemini başa düşməklə, mümkün variantı əsaslandırmaq, bu zaman əldə olan informasiya və təhlilin məqsədini nəzərə almaqla seçim etməkdir. Maliyyə təhlili prosesinin xərc tələb etməsi, xərc və nəticənin müqayisəsinin aparılması tələbi, hesabatın nəticələrinin düzgünlüyünü ödəməyə yönələn analitik işin yerinə yetirilməsi və əmək məsrəflərinin minimallaşdırılması bu şərti səciyyələndirir.

– Səmərəli maliyyə təhlilinin aparılmasında müəssisənin rəhbərliyinin işin nəticələri barəsində maraqlı olmasıdır.

Müasir dövrdə müəssisənin rəhbərliyi qarşısında təkcə maliyyə təhlili metodlarının mənimsənilməsi deyil (peşəkar təhlilin yerinə yetirilməsi üçün uyğun olaraq hazırlıqlı kadrlar vacibdir), həmçinin təhlilin nəticələrindən istifadə edə bilmək məsələsi də durur. Konkret məsələnin həllinə cəhd etmək və maliyyə vəziyyətinin peşəkar qiymətləndirilməsinə nail olmaq üçün müəssisənin rəhbərləri maliyyə təhlilinin köməyindən istifadə etməyə yönəlirlər. Bu zaman onlar, bir qayda olaraq hesabatın göstəricilərinin kəmiyyətinin konstatasiyası ilə kifayətlənmirlər, ödəmə vasitələrinin məqbul olması, özünün və borc kapitalının normal nisbəti, kapitalın dövriyyə sürəti və onun dəyişmə səbəbləri, bu və ya digər fəaliyyət növlərinin maliyyələşdirmə tipləri haqqında konkret nəticənin alınmasına can atırlar.

Maliyyə təhlilinin nəticələri zəif yerlərin aşkar edilməsinə, ora xüsusi diqqətin yetirilməsinə imkan verir. Belə yerlərin aşkar edilməsi, onların aradan qaldırılmasına yönəlmiş tədbirlərin işlənməsi ilə nəticələnir. Bütün bunlar bir daha göstərir ki, müasir dövrdə maliyyə təhlili idarəetmənin elementinə çevrilir.

İstifadəçilərin ixtisas səviyyələri və onların məqsədindən asılı olaraq maliyyə təhlili, həmçinin maliyyə hesabatı xarici və daxiliyə bölünür [3].

Daxili istifadəçilərə müəssisənin idarəetmə personalı aiddir. Onlar istehsal və maliyyə xarakterli müxtəlif qərarlar qəbul edirlər. Məsələn, hesabat əsasında gələn il üçün müəssisənin maliyyə planı tərtib edilir, reallaşdırılan məhsul həcminin artıb və ya azalması, müəssisənin investisiya resurslarına istiqamətlənmiş satılan məhsulun qiyməti, kreditin cəlb edilməsi məqsədəuyğunluğu və s. haqqında qərar qəbul edilir. Aydındır ki, belə qərarların qəbulu üçün tam, vaxtında və dəqiq informasiya tələb olunur, əks təqdirdə, müəssisə böyük itkilərə məruz qalar və hətta müflisləşə bilər.

Bundan başqa, maliyyə hesabatı müəssisə və onun ətraf mühiti arasında əlaqələndirici bənddir. Bazar şəraitində müəssisənin xarici istifadəçilərə hesabatların təqdim edilməsində məqsəd, hər şeydən əvvəl, maliyyə bazarında əlavə maliyyə resurslarının alınmasından ibarətdir. Beləliklə, maliyyə hesabatlarında nə göstərilməyindən müəssisənin gələcəyi asılıdır. Müəssisə və maliyyə bazarları arasında səmərəli əlaqənin təmin olunmasında məsuliyyəti müəssisənin yuxarı idarəetmə bölməsinin menecerləri daşıyır. Xarici istifadəçilərin hansı informasiyanı alacaqları və qəbul etdiyi qərara təsirində maliyyə hesabatları vacib rol oynayır. Yəni xarici istifadəçilər üçün maliyyə hesabatları çox hallarda əsas informasiya mənbəyi sayılır.

Başqa şərtlər eyni olduqda, xarici istifadəçilər qərarı maliyyə hesabatları göstəricilərinin məhdud dairəsi əsasında qəbul edirlər, məhz həmin göstəricilər maliyyə menecerinin diqqət mərkəzində olmalıdır və qərar müəssisənin maliyyə vəziyyətinə təsirinin qiymətləndirilməsində yekun nöqtə olur.

Fikrimizcə, maliyyə hesabatlarının xarici istifadəçiləri arasında iki qrup fərqlənir. Birinci qrupa aiddir:

– *müəssisənin indiki və potensial mülkiyyətçiləri* üçün müəssisənin öz vəsaitləri payının artıb və ya azalmasının təyin edilməsi və müəssisənin rəhbərliyinin resursların səmərəli istifadəsinin qiymətləndirilməsi vacibdir;

– *indiki və potensial kreditorlar* – kreditin təqdim edilməsi və ya uzadılması məqsədəuyğunluğunun qiymətləndirilməsi, kreditləşmə şərtlərinin təyin edilməsi, kreditin qaytarılması zəmanətinin təyini, müştəri kimi müəssisəyə inamın qiymətləndirilməsi üçün hesabatlardan istifadə edir;

– *baxılan müştəri ilə işgüzar əlaqələrin möhkəmliyini təyin edən mal* göndərənlər və alıcılar;

– *vergi orqanlarının şəxsində dövlət* – hesabat sənədlərinin düzgün tərtib edilməsini, vergilərin hesablanmasını yoxlayır;

– *müəssisənin qulluqçuları* – özlərinin əmək haqqı səviyyəsi və bu müəssisədə çalışmağın perspektivi nöqteyi–nəzərindən baxılan hesabatlarla maraqlanırlar.

Maliyyə hesabatlarının xarici istifadəçilərinin ikinci qrupu – hüquqi və fiziki şəxslərdir ki, birinci qrup istifadəçilərinin maraqlarının qorunması

üçün hesabatların öyrənilməsi vacibdir. Bu qrupa aiddir:

– *auditor xidməti* – investorların maraqlarının müdafiəsi məqsədilə baxılan hesabatları qanunvericiliyə, uçot və hesabatın ümumi qəbul olunmuş qaydalara uyğunluğunu yoxlayır;

– *maliyyə məsələləri üzrə məsləhətçilər* müştərilərinə onların kapitalının bu və ya digər müəssisədə yerləşdirilməsinə dair məsləhət vermək məqsədilə hesabatları istifadə edir;

– *qiymətli kağızlar birjası*;

– *qeydə alan və başqa dövlət orqanları* müəssisələri qeydə almaq, onların fəaliyyətinin dayandırılması, hesabatların tərtibi və uçot metodlarının dəyişdirilməsi vacibliyinin qiymətləndirilməsi haqqında qərar qəbul edir;

– *qanunvericilik orqanları*;

– *hüquqşünasların* müqavilə şərtlərinin yerinə yetirilməsinin qiymətləndirilməsi, mənfəətin bölüşdürülməsi və dividendin ödənilməsi zamanı qanunvericilik normalarının gözlənilməsi, həmçinin pensiya təminatının şərtlərinin təyin edilməsi üçün hesabatlara ehtiyacı vardır;

– *ticarət-istehsal assosiasiyası* sahələr üzrə statistik ümumiləşdirmə, müqayisəli təhlil və sahə səviyyəsində fəaliyyətin nəticələrinin qiymətləndirilməsi üçün hesabatdan istifadə edirlər;

– *həmkarlar ittifaqı* əmək müqaviləsi və əmək haqqına nəzərən öz tələblərini, həmçinin müəssisənin daxil olduğu inkişaf tendensiyasının qiymətləndirilməsini təyin etmək üçün maliyyə informasiyalarına maraqlıdırlar.

Təbiidir ki, bütün sadalananlar maliyyə təhlili və onun idarəetmədə rolunu əks etdirmir. Bunun üçün uyğun maliyyə əmsallarının təyini, maliyyə menecmentinin elementlərindən istifadə və digər məsələlərə baxmaq zərurəti yaranır.

**Ədəbiyyat siyahısı**

1. *Абрютин М.С, Грачев А.В.* Анализ финансово – экономической деятельности предприятия. – М.: Дело и сервис, 1998, 180 с.
2. *Балабанов И.Т.* Основы финансового менеджмента. – М.: Финансы и статистика, 1997, 384 с.
3. *Ефимова О.В.* Финансовый менеджмент. – М.: Инфра-М., 1996, 208 с.
4. *Задачи* финансового менеджмента. – М.: Бухгалтерский учет, 1999, 208 с.
5. *Крейнина М.Н.* Финансовый менеджмент. – М.: Дело и сервис, 1998, 319 с.

**References**

1. *Abryutin M.S., Grachev A.V.* Analiz finansovo-ekonomicheskoy deyatel'nosti predpriyatiya. – M.: Delo i servis, 1998, 180 s.
2. *Balabanov I.T.* Osnovy finansovogo menedzhmenta. – M.: Finansy i statistika, 1997, 384 s.
3. *Yefimova O.V.* Finansoviy menedzhment. – M.: Infra-M., 1996, 208 s.
4. *Zadachi* finansovogo menedzhmenta. – M.: Bukhgalterskiy uchyot, 1999, 208 s.
5. *Kreynina M.N.* Finansoviy menedzhment. – M.: Delo i servis, 1998, 319 s.